**FƏNN**: QİYMƏT VƏ QİYMƏTLƏNDİRMƏ

# MÖVZU 11: ƏHALİYƏ GÖSTƏRİLƏN MƏİŞƏT VƏ KOMMUNAL XİDMƏTLƏRİ QİYMƏTİNİN ƏMƏLƏ GƏLMƏSİ

**Müəllim**: Rafiq Vahid oğlu Abbasov

**Tarix :** 2025

**İxtisas**: Marketinq

**Qrup**: $3^1$,$3^2$,$3^3$

**Mühazirə:** Teorik

**FTN 5**. Iqtisadiyyatın müxtəlif sahələrində qiymətin əmələ gəlməsi xüsusiyyətləri, burada qiymətlərin müəyyənləşdirilməsi metodologiyasının mənimsənilməsi təmin edilir

## P L A N

1. Mənzil-kommunal xidmətləri tarifləri.
2. Rabitə xidmətləri tarifləri.

## ƏDƏBİYYAT


1. Çudakov A.D. . "Qiymət və qiymətin əmələ gəlməsi" Dərslik. Bakı, "Elm", 2009, rus dilindən tərcümə, 312 səh.

2. Kazımlı X., Bayramov Q., Sadıqov B., Quliyev İ., Hümbətova S., Məmmədov İ. Qiymətin əmələ gəlməsi. Dərslik Bakı, "Müəllim", 2019, 498 səh.

3. Qarayev İ. Qiymətin əmələ gəlməsi. Dərslik. Bakı, UNEC, 2000, 358 səh.

4. Qafarov N.C., Quliyev İ.Q. Qiymət və qiymətləndirmə. Bakı, ADİU, 2017, 375 səh.

## *1. MƏNZİL–KOMMUNAL XİDMƏTLƏRİ TARİFLƏRİ*

Əhalinin həyat səviyyəsi yüksəldikcə onların istifadə etdiyi pullu və pulsuz xidmətlərin həcmi getdikcə artır. Göstərilən xidmətlərin dairəsi və həcminin genişləndirilməsi zəhmətkeşlərin asudə vaxtlarına qənaət edir və iş qüvvəsinin geniş təkrar istehsalının mühüm amilinə çevrilir. Sosial əhəmiyyətinə görə xidmətləri iki qrupa bölmək olar: 1) əhalinin həyat şəraitinin təmin olunmasında mühüm rol oynayan xüsusi əhəmiyyət kəsb edən xidmətlər; 2) kütləvi tələbatın adi növlərinin xidmətləri.

Xüsusi sosial əhəmiyyətli xidmətlərə yanaşmada əhalinin bütün qruplarının bu xidmətlərə tələbatının minimum dərəcədə təmin olunması imkanları yaradılmasına yönəldilmiş qiymət siyasəti həyata keçirilir. Belə xidmətlərə ilk növbədə insanların mənzilə və tibbi xidmətlərə olan tələbatlarının təmin edilməsi aiddir. İkinci qrup xidmətlərin qiymətləri xalis bazar amillərinin təsiri altında formalaşır. Bu xidmətlərin tarifləri və qiymətlərinin səviyyəsi coğrafi və mövsümi amillərdən xeyli dərəcədə asılıdır. Coğrafi amilin təsiri xidmət növlərinin çoxunun qiymət və tariflərinin ərazicə diferensiallaşdırılmasında özünü göstərir. Bir çox xidmətlərə tələb mövsümi xarakter daşıyır. Məsələn, yayda turist xidmətlərinə, sərnişin nəqliyyatı xidmətlərinə tələb artır.

Xidmətlərə tələb azaldığı dövrdə qüvvədə olan tariflərə güzəştlər edilir.

Xidmət tariflərinin formalaşması xeyli dərəcədə istehlak dəyərinin spesifik xüsusiyyətindən asılıdır. Xidmətlərin bir hissəsi şəxsi tələbatları ödəyən istehlak dəyəri istehsalı, digər xidmət növləri isə istehlak dəyəri yaratmadan, yalnız fərdə qulluq göstərilməsi ilə bağlıdır.

Fərdi sifarişlə paltar tikilməsi və ya məişət texnikasının təmir olunması istehlak dəyərləri yaradılması ilə əlaqədardır. Bu xidmətlərin qiyməti yalnız xidmətin göstərilməsinin ictimai zəruri əmək məsrəflərindən deyil, həm də yeni oxşar kütləvi istehsal mallarının mövcud qiymətlərindən asılıdır. Hamam, bərbərxana, sərnişin nəqliyyatı, teatr və i.a. xidmətləri istehlak dəyəri yaradılmadan göstərilir və fəaliyyət növü kimi əməyin bilavasitə istehlakında təzahür edir. Belə xidmətin qiyməti sərf olunmuş ictimai zəruri əməyin kəmiyyəti və keyfiyyətindən asılıdır.

Bütün xidmət növlərinin tarifləri onların keyfiyyətindən asılı olaraq diferensiallaşdırılır. Mənzil tarifləri onun rahatlığını nəzərə alır; nəqliyyat xidmətinin keyfiyyəti qatarın rahatlığı və sürəti ilə müəyyən edilir; poçt xidmətinin keyfiyyəti məktub, teleqram və s. vaxtında çatdırılmasından asılıdır və i.a.

Bazar iqtisadiyyatında pullu xidmətlərin çoxunun tarifləri sərbəst formalaşır. Onlar xidmət göstərən sahibkarlar tərəfindən çəkilmiş məsrəflər, tələb və təklifin nisbəti nəzərə alınmaqla, yaxud da müqavilə əsasında müəyyən olunur. Hazırda kommunal xidmətləri, sərnişin nəqliyyatı, rabitə tarifləri dövlət tərəfindən tənzimlənir. Burada ən çətin məsələ kommunal xidmətləri tariflərinin əsaslandırılmış səviyyəsinin müəyyən edilməsidir. İnsanın həyati əhəmiyyət kəsb edən tələbatlarını ödəyən kommunal xidmətləri sisteminə mənzil təsərrüfatının saxlanması, su kəməri və çirkab sularının axıdılması, enerji, istilik və qaz təchizatı, şəhər daxili nəqliyyatın işi, ərazinin təmizlənməsi və qaydaya salınması daxildir. Kommunal xidmətlərin xüsusi sosial xarakteri bu sahədə vahid qiymət siyasətinin aparılmasını obyektiv zərurətə çevirir. İqtisadi islahatlara qədər kommunal xidmətləri tarifləri aşağı səviyyədə müəyyən olunduğuna görə ictimai zəruri əmək məsrəflərini ödəmirdi. İqtisadi islahatların başlanması ilə mənzil-kommunal təsərrüfatının zərərsiz işləməsi məqsədi qarşıya qoyulmuşdur. Əhalinin gəlirləri artdıqca bu sahənin xərclərinin tam ödənilməsi nəzərdə tutulur. Mənzil haqqı və kommunal ödənişlərin miqdarının müəyyən edilməsi yerli hakimiyyət orqanlarına həvalə olunur. Mənzil–kommunal xidmətləri haqqının miqdarındakı fərqlər görülən işlərin maya dəyərinin səviyyəsinin müxtəlifliyi ilə əlaqədardır. Ölkənin regionları üzrə mənzil istismarı, içməli suyun verilməsi, istilik və enerji təchizatı, təmizlik, çirkab suların axıdılması və s. məsrəfləri fərqlənir. Mənzil–kommunal xidmətləri haqqının miqdarını təyin edərkən məsrəflərin obyektiv səviyyəsinin müəyyən olunması, xərclərin aşağı salınması ehtiyatlarının aşkara çıxarılması və istifadəsi üçün şəraitin yaradılması mühüm əhəmiyyət kəsb edir.

Mənzil–kommunal xidmətlərin tarifləri ictimai zəruri məsrəf elementləri əsasında hesablanır. Mənzil–kommunal təsərrüfatında kalkulyasiya obyektləri 1 $m^2$ yararlı və ya yaşayış sahəsi, 1 $m^3$ çirkab suları və s. sayılır. Kommunal xidmətləri tarifləri də bu ölçü vahidlərinə görə müəyyən olunur.

Kommunal müəssisələrinin xidmət tarifləri normativ məsrəflər əsasında hesablanır. Kommunal xidmətləri (*istilik, elektrik enerjisi, su. qaz*) tarifləri istehlakçı kateqoriyaları üzrə müəyyən edilir ki, bu da göstərilən xidmətlərin məsrəflərindəki fərqlərlə əlaqədardır. İslahatlara qədər üç istehlakçı qrupu fərqləndirilirdi: 1-ci qrupa sənaye istehlakçıları, 2-ci qrupa büdcə dairəsi təşkilatları və kənd təsərrüfatı istehlakçıları, 3-cü qrupa isə əhali aid edilirdi.

Mənzil–kommunal xidmətləri tarifləri mərkəzi və yerli hakimiyyət orqanları tərəfindən tənzimlənir. Lakin təbii inhisarçılıq sahəsində qiymətlərin tənzimlənməsinə dair lazımi metodiki sənədlərin olmaması bu prosesi kifayət qədər səmərəli etmir. Əhali tərəfindən ödənilən mənzil–kommunal xidmətləri dəyərinin hədd ölçüsü hökumət səviyyəsində təyin olunur. Hər region kommunal xidmətləri obyektlərini və tariflərin tənzimlənməsi qaydasını müəyyən edir. Mənzil–kommunal dairəsində qiymətin tənzimlənməsi çox mühüm əhəmiyyətə malikdir. Çünki əhalinin rifahı və sağlamlıq durumu bu dairənin işindən xeyli asılıdır. Mənzil–kommunal tariflərinin tənzimlənməsi regionun siyasi, maliyyə, informasiya və digər problemlərini nəzərə almalıdır.

Mənzil–kommunal xidmətləri qiymətinin əmələ gəlməsinin təkmilləşdirilməsi prosesi mənzil-kommunal təsərrüfatının islahatı konsepsiyası daxilində həyata keçirilir. Bu konsepsiyada əhalinin az təminatlı təbəqələrinin sosial müdafiəsini təmin etməklə mənzil-kommunal xidmətlərinə görə əhalinin ödənişlərinin mərhələlərlə artırılması yolu ilə zərərsiz iş rejiminə keçilməsi nəzərdə tutulur. Mənzil–kommunal xidmətləri ödənilməsinin bazar prinsiplərinə keçərkən əhalinin müdafiəsi yerli özünüidarə etmə orqanları və ya mənzil maliyyə yardımları xidməti müvəkkilləri tərəfindən ödənilən mənzil maliyyə yardımları proqramı vasitəsilə həyata keçirilməlidir. Maliyyə yardımı almaq hüququ olanların hamısına bu yardımın verilməsi mənzil və kommunal xidmətlərinin ödəniş dərəcələrinin artırılmasına dair yerli idarələr tərəfindən qəbul olunan qərarın qanuniliyinin mühüm şərti sayılır. Bu məqsədlə Rusiya Federasiyasında hazırlanmış mənzil və kommunal xidmətlərinin ödənilməsinin yeni sisteminə keçilməsi standartları təqdirə layiqdir. Bu standartların müəyyən edilməsi metodikasına uyğun olaraq mənzil (*saxlanması, cari və əsaslı təmir*), istilik təchizatı, su təminatı, çirkab suların axıdılması, qaz təchizatı, elektrik təchizatı kimi mənzil-kommunal xidmətləri göstərilməsinin 1 $m^2$

ümumi mənzil sahəsinə aylıq hədd dəyərinin ($F_1$) federal standartının hesablanması keçən ilin sonuna mənzil və kommunal xidmətləri göstərilməsinin orta dəyəri ($F$), standartın hesablandığı ilin ortasına istehlak qiymətlərinin artım indeksi ($\dot{I}$), kommunal xidmətləri istehlakı səviyyəsinin gözlənilən azalması nəzərə alınmaqla müəyyən edilən kommunal xidmətləri istehlakı normativlərinin kəmiyyətinin dəyişilməsi ($N$), hər mənzil-kommunal xidməti üzrə xidmət vahidinin dəyərinin dəyişilməsi ($D$) və Federal energetika komissiyasının təyin etdiyi tariflərin kəmiyyətinin gözlənilən dəyişilməsinə ($T$) dair statistik hesabatlar əsasında, adətən, ildə bir dəfə həyata keçirilir.

Beləliklə, 1 $m^2$ ümumi mənzil sahəsinə göstərilən mənzil-kommunal xidmətlərinin sonrakı ilin aylıq hədd dəyərinin federal standartı göstəriləcək ayrı-ayrı xidmətlərin dəyərinin cəmi kimi aşağıdakı düsturla hesablanır:

a) mənzil xidmətləri üçün: $\boldsymbol{F_1 = F \times \dot{I} \times D}$;

b) tariflərini Federal energetika komissiyasının təsdiq etdiyi xidmətlər üçün: $\boldsymbol{F_1 = F \times T \times N}$;

c) yerdə qalan bütün xidmətlər üçün: $\boldsymbol{F_1 = F \times \dot{I} \times D \times N}$.

Mənzil–kommunal xidmətləri haqqı ($D$) aşağıdakı düsturla hesablanır:

$$\boldsymbol{D = P \times V}$$

burda $D$ – xidmət vahidinin dəyəri;

$P$ – ayda 1 nəfərə düşən mənzil-kommunal xidmətlərinə müəssisənin sərf etdiyi məsrəflər;

$V$ – mənzilin saxlanması və təmiri, həmçinin göstərilən mənzil-kommunal xidmətlərə əhalinin ödənişinin səviyyəsidir.

$P$ aşağıdakı düstur əsasında müəyyən olunur:

$$\boldsymbol{P = G \times T},$$

burda $G$ – yaşayış sahəsinin sosial norması;

$T$ – 1 $m^2$ üçün mənzil-kommunal xidmətlərinin faktiki dəyəridir.

Müəyyən səviyyədə adambaşına orta gəlirli müvafiq əhali qrupları üçün bir nəfərə aylıq mənzil maliyyə yardımının ($Y$) miqdarının hesablanması aşağıdakı düstur vasitəsilə həyata keçirilir:

$$\boldsymbol{Y = D - X}$$

burda $D$ – mənzil-kommunal xidmətlərinə görə müəyyən edilmiş ödəniş;

*X* –müəyyən səviyyədə adambaşına orta gəlirlə vətəndaşların mənzil və kommunal xidmətləri haqqının yol verilən hədd xərcləridir.

Mülkiyyət formasından asılı olmayaraq mənzil fonduna aid evlərdə yaşayan vətəndaşların (*xüsusi mülk sahiblərindən başqa*) ödənişlərinin strukturu aşağıdakılardan ibarətdir:

a) mənzil fondunun saxlanması və cari təmiri;

b) mənzil fondunun əsaslı təmiri;

c) mənzili kirayə götürmə (*mənzili kirayə edənlər üçün*).

Mülkiyyət formasından asılı olmayaraq mənzil fonduna aid evlərdə yaşayan vətəndaşlar həmçinin kommunal xidmətləri (*su təminatı, istilik təchizatı, isti su təminatı, qaz və elektrik təchizatı, məişət tullantılarının daşınması, lift təsərrüfatının xidməti və s.*) ödəyirlər.

Yerli özünüidarə etmə orqanları tərəfindən aşağıdakılar təsdiq olunur:

1) mənzil-kommunal xidmətləri istehlakı normativləri;

2) əmtəə, iş və xidmət tariflərinin ekspertizası aparılarkən onlar ödənildikdə nəzərə alınan əsassız məsrəflərin aşkar edilməsi sayəsində onların azaldılması məqsədilə müvafiq tədbirlərin görülməsi nəzərə alınmaqla mənzil-kommunal xidmətləri (*elektrik enerjisi və qaz tariflərindən başqa*) dərəcəsi və tarifləri.

Bu zaman mənzil-kommunal xidmətləri dərəcəsi və tariflərinin səviyyəsinə yenidən baxılmasına dair qərar qəbul etməzdən əvvəl müvafiq xidmətlər ödənilərkən nəzərə alınan əmtəə, iş və xidmət tariflərinin iqtisadi cəhətdən əsaslandırılmasının məcburi qaydada ekspertizası həyata keçirilməlidir.

Yerli özünüidarə etmə orqanlarının ailənin ümumi gəlirində vətəndaşların mənzil və kommunal xidmətləri ödənilməsinə öz xərclərinin maksimal yol verilən payının miqdarını və görülən mənzil-kommunal xidmətlərinə görə vətəndaşların ödənişinin miqdarını müəyyən etmək hüququ vardır. Bu halda mənzil və kommunal xidmətlərinin əhali tərəfindən ödəniş haqqının hədd miqdarının dövlət standartlarından aşağı müəyyən edilməsi vəsaitlərin yenidən bölgüsü üçün əsas olmamalıdır.

Yerli dövlət hakimiyyəti və özünüidarə etmə orqanları öz səlahiyyətləri daxilində su təminatı, istilik təchizatı, həmçinin bərk məişət tullantılarının

məhv edilməsi, istifadəsi və basdırılması xidmətləri tariflərinin tədricən istehlakçı kateqoriyaları üzrə yaxınlaşdırılması üçün tədbirlər görməlidir. Bu məqsədlə bütün istehlakçılar üçün xidmət tariflərinin onların görülməsi məsrəflərinin ödənilməsini və kommunal mühəndis infrastruktur obyektlərin inkişafını təmin edə beləcək səviyyəyə çatdırılması, kommunal xidmətlərin ödənilməsi məqsədilə əhalinin az təminatlı təbəqələrinə ünvanlı sosial yardım verilməsi nəzərdə tutulur.

İcra hakimiyyəti və yerli özünüidarə etmə orqanlarına əhalinin əsas sosial-demoqrafik qrupları üzrə istehlak səbətinin müəyyən edilməsinə dair metodiki göstərişlər əsasında əhali üçün kommunal xidmətləri istehlakı normativlərini təyin etmək tövsiyyə olunur. Bununla əlaqədar su təminatı, istilik təchizatı, həmçinin bərk məişət tullantılarının məhv edilməsi, istifadəsi və basdırılması xidmətlərinin ödənilməsində ayrı-ayrı istehlakçı kateqoriyaları üçün güzəştlərin müəyyən olunması praktikasından imtina edilməsinə başlanmışdır.

### *2. RABİTƏ XİDMƏTLƏRİ TARİFLƏRİ*

Fəaliyyətdə olan qanunvericiliyə əsasən poçt və elektron rabitəsinin münasib xidmətləri təbii inhisarçılığa aid edilir. Telekommunikasiya xidmətləri bazarının inkişaf konsepsiyasına uyğun olaraq rabitə xidmətlərinin dövlət tənzimlənməsinin əsas müddəaları işlənib hazırlanmışdır. Burada ölkə daxili bazarda münasib elektron və poçt xidməti tariflərinin dövlət tənzimlənməsinin məqsədləri, prinsipləri və mexanizmi müəyyən olunmuşdur.

Müvafiq qaydada rabitə sahəsində təbii inhisarçılıq subyektləri siyahısına (*reyestrinə*) daxil edilmiş rabitə operatorları tərəfindən göstərilən xidmətlərin tarifləri dövlət tərəfindən tənzimlənir.

Rabitə xidmətləri tariflərinin dövlət tənzimlənməsi aşağıdakı *məqsədlərlə* həyata keçirilir:

1) istehlakçıların iqtisadi mənafelərinin rabitə xidmətləri tariflərinin əsaslandırılmamış artımından qorunması;

2) rabitə sahəsində təbii inhisarçılıq subyektləri və onların xidmətlərindən istifadə edənlərin maraqlarının tarazlaşdırılmasına nail olunması;

3) rabitə xidmətləri bazarında rəqabət mühitinin inkişafı;

4) rabitə xidmətlərinin maya dəyərinin aşağı salınması, rabitə operatorlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi, rabitə vasitələri və şəbəkələrinin daha da inkişafı və yeniləşdirilməsi, rabitə xidmətləri bazarının genişləndirilməsi və onların keyfiyyətinin yaxşılaşdırılmasının iqtisadi stimullarının tətbiqi;

5) investisiyaların cəlb olunması üçün şəraitin yaradılması.

Rabitə xidmətləri tariflərinin dövlət tənzimlənməsinin həyata keçirilməsi aşağıdakı *prinsiplərdən* irəli gəlir:

a) rabitə operatorlarına rabitə vasitələri və şəbəkələrini inkişaf etdirmələri və yeniləşdirmələri üçün şəraitin yaradılması, tənzimlənən rabitə xidmətləri göstərilməsi ilə əlaqədar iqtisadi cəhətdən əsaslandırılmış məsrəflərin kompensasiyası;

b) rabitə xidmətləri göstərərkən istifadə etdikləri kapitala görə rabitə operatorları üçün əsaslandırılmış mənfəət normasının müəyyən olunması;

c) rabitə xidmətlərinə tədiyə qabiliyyətli tələbin ödənilməsi, rabitə xidməti istifadəçilərinin maraqlarının tariflərin əsaslandırılmamış yüksəldilməsindən qorunması;

d) tənzimlənən rabitə xidmətləri tariflərinin strukturunda qanunvericilikdə nəzərdə tutulan vergilərin və digər məcburi ödənişlərin hesaba alınması.

Məsrəflərin və normativ mənfəətin iqtisadi cəhətdən əsaslandırılması barədə qərar qəbul edərkən tənzimləyici orqan aşağıdakıları nəzərə alır:

1) rabitə operatorlarının istifadə etdiyi məhsulun (*xidmətin*) qiymətləri (*tarifləri*), dövlət tərəfindən tənzimlənən xidmətlərin tarifləri, həmçinin qanunvericiliyə uyğun olaraq rabitə operatorlarına qoyulan vergilər və digər məcburi ödənişlər;

2) rabitə operatorlarının xidmətin inkişafı vasitələri ilə təmin olunması, dividendlərin və digər əsaslandırılmış xərclərin ödənilməsi üçün zəruri mənfəətin miqdarı;

3) rabitə operatorlarının kapital qoyuluşları planı və rabitə xidmətləri tariflərinin strukturunda vəsaitlərin cəlb olunması məsrəflərinin hesaba alınması məqsədilə onların maliyyələşdirilməsi mənbələri;

4) məsrəflərin və mənfəətin dinamikası, həmçinin keçən dövrün inflyasiya göstəriciləri və qarşıdakı dövr üçün inflyasiya proqnozu.

Çarpaz maddi yardım elementləri yalnız tənzimlənən poçt rabitə xidmətləri, əhali üçün kənd telefon rabitəsi və teleqraf rabitəsində saxlanılır. Rabitənin digər növlərinin tarifləri iqtisadi cəhətdən əsaslandırılmış *məsrəfləri* tam ödəməli və normativ mənfəəti özünə daxil etməlidir.

Yerli telefon rabitəsi xidmətlərinin tarifləri istehlakçıların iki kateqoriyası, yəni əhali və təşkilatlar üzrə diferensiallaşdırılır.

Yerli (*vaxta görə ödəmə sistemində*) və beynəlxalq telefon rabitəsi tarifləri tənzimləyici orqanın qərarına əsasən günün saatları, həftənin günləri və xidmət üsullarına görə diferensiallaşdırıla bilər. Bununla əlaqədar olaraq telefon rabitəsi xidmətlərinin vaxta görə ödəmə sistemində yerli telefon danışıqlarına görə tariflərin hesablanması qaydası hazırlanmışdır.

Rabitə operatorları rabitə xidmətlərinin iqtisadi cəhətdən əsaslandırılmış məsrəflərinin və normativ mənfəətin *hesablanmasına* dair metodiki tövsiyyələrə əsasən rabitə xidməti növləri üzrə gəlirlərin və xərclərin ayrıca uçotunu aparır, sonra isə rabitə xidmətləri göstərilməsinin iqtisadi cəhətdən əsaslandırılmış məsrəflərinin tam ödənilməsini və normativ mənfəəti təmin edən, tənzimlənilən hər xidmət tarifinin səviyyəsini hesablayır və tənzimləyici orqana təqdim edir. Onlar həmçinin tənzimləyici orqana rabitə xidməti tariflərinə yenidən baxılması barədə təkliflə müraciət etmək hüququna malikdirlər. Bunun üçün aşağıdakı şərtlərdən birinin mövcudluğu tələb olunur:

a) rabitə xidmətinin maya dəyərinə aid edilən məsrəflərin, müvafiq büdcələrə məcburi ayırmalar və ödənişlərin miqdarının dəyişilməsinə səbəb olan normativ hüquqi aktların icrasına başlanılması;

b) mərkəzi bankın yenidən maliyyələşdirmə dərəcəsinin dəyişilməsi;

c) rabitə xidmətlərinin inkişafı və onların keyfiyyətinin yüksəlməsi;

d) rabitə operatorundan asılı olmayan, xidmətlərin maya dəyərinin 5%-dən çox artımını törədən amillərin meydana gəlməsi.

Tənzimlənən poçt rabitə xidməti, əhali üçün kənd telefon rabitəsi və teleqraf rabitəsi tarifləri inflyasiya nəzərə alınmaqla tənzimləyici orqan tərəfindən indeksləşdirilir. Tariflərin tənzimlənməsi hədd qiymətinin əmələ gəlməsi metodu üzrə tariflərin müəyyən edilməsi metodikası əsasında həyata keçirilir. Bu metodikaya uyğun olaraq rabitə operatorları bəzi rabitə xidmətləri tariflərini müstəqil surətdə müəyyən etmək hüququna malikdirlər.

Ölkənin daxili bazarında aşağıdakı rabitə xidməti tariflərinin dövlət tənzimlənməsi həyata keçirilir:

1) daxili yazılı məktublaşma (*poçt kartoçkaları, məktublar, banderollar*);

2) daxili teleqram;

3) abunəçilərə beynəlxalq telefon danışığı xidmətinin göstərilməsi;

4) abunə xətti tipindən (*simli və ya radioxətt*) asılı olmayaraq telefon şəbəkəsinə qoşulmağa imkan verilməsi;

5) abunəçilər tərəfindən yerli telefon danışığının həyata keçirilməsi. Buna görə ödəməyə daxildir:

a) telefon rabitə xidmətləri haqqının ödənilməsinin abunəçilik sistemində-abunə xəttinin tipindən asılı olmayaraq onun abunəçinin daimi istifadəsinə verilməsi və davamlığına fərq qoymadan yerli telefon danışığına görə abunə haqqı;

b) telefon rabitə xidmətlərinin ödənilməsinin vaxta görə sistemində-abunə xəttinin tipindən asılı olmayaraq onun abunəçinin daimi istifadəsinə verilməsinə görə abunə haqqı və davamlığından asılı olaraq yerli telefon danışığı üçün tarif vahidi ilə vaxta görə haqq.

Dünya ölkələrinin çoxunda tariflər Beynəlxalq elektron rabitə ittifaqı tərəfindən hazırlanmış elektron rabitə xidmətləri tarifikasiyasının ümumi prinsipləri və Ümumdünya poçt ittifaqı Konvensiyası tərəfindən hazırlanmış poçt rabitə xidmətləri tarifikasiyasının ümumi prinsipləri nəzərə alınmaqla tərtib olunmuşdur.

Rabitə xidmətlərindən əldə olunan gəlirlər təşkilatların bütün xərclərini ödəməlidir. Tariflər aşağıdakıları kompensasiya etməlidir:

1) istismar xərclərini;

2) istifadə olunan kapitala görə faizləri;

3) fiskal vergiləri;

4) avadalıqların amortizasiyasını;

5) tədqiqat və sınaq xərclərini;

6) şəbəkənin genişləndirilməsi və yenidən qurulması üçün zəruri kapital qoyuluşlarını.

Güzəştli tariflər müəyyən olunarkən (*milli və sosial mülahizələrdən irəli gələn*) gəlirlərdəki itkilər həmin təşkilatın digər rabitə xidmətləri tariflərinin artırılması hesabına kompensasiya edilməlidir.

Rabitə xidmətləri tarifləri başqa təşkilatlarla qarşılıqlı əlaqəni nəzərə almalı və müvafiq təşkilatlar tərəfindən göstərilən digər xidmət növlərinin inkişafını sarsıdan rəqabət yaratmamalıdır.

Rabitə xidmətlərinin göstərilməsindən əldə edilən gəlirlərin ümumi miqdarı rabitə təşkilatının səmərəli fəaliyyəti üçün lazım olan məbləğdən çox olmamalıdır. Həm də tarif xidmətlərin həcminin artırılmasını və rabitə şəbəkələrinin inkişafını stimullaşdırmalıdır.

Tariflər sistemi bütün abunəçi kateqoriyalarının bərabər hüquqlarına zəmanət verən bir şəkildə tərtib olunmalıdır.

Tariflər sistemi yeni tələbatlar yarandıqda, onun kifayət qədər sadə üsulla təkmilləşdirilməsi üçün çevik olmalıdır.

x x x

Ölkəmizdə iqtisadi islahatların həyata keçirildiyi illər ərzində məişət xidmətlərinin həcmi xeyli dərəcədə azalmışdır. Əhaliyə göstərilən məişət xidmətlərinə ayaqqabı təmiri və tikilməsi, tikiş məmulatlarının təmiri və tikilməsi, məişət texnikası və metal məmulatların təmiri, mebel təmiri və hazırlanması, trikotaj məmulatlarının təmiri və toxunması, kimyəvi təmizləmə və boyama, çamaşırxana, hamam xidmətləri, bərbərxana işləri, mənzil təmiri və tikintisi, kirayə vermə, fotoatelye xidmətləri, sair xidmətlər daxildir. Məişət xidmətinin qiyməti eyni zamanda onun həm topdansatış, həm də pərakəndə satış qiymətidir.

Məişət xidmətlərinin qiyməti müəyyən olunarkən göstərilən xidmətin keyfiyyəti və xidmətin mədəni səviyyəsi, sifarişin yerinə yetirilməsinin təcililik dərəcəsi, ayrı-ayrı məişt xidməti növlərinin mövsümiliyi ilə əlaqədar tələbin dəyişilməsi, həmçinin sifarişçilər üçün onların xahişi ilə əlavə rahatlığın yaradılması nəzərə alınır.

Seminar sualları:

1.Xidmətlər və qiymətlər
2.Mənzil kommunal xidmətlərində tariflər və onların hesablanması metodikası
3.Mənzil kommunal xidmətləri tariflərinin dövlət tənzimlənməsi
4.Rabitə xidmətində tariflər. və onarın hesablanması metodikası

5.Rabitə xidməti tariflərinin dövlət tənzimlənməsi